

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

4 avqust 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 30 (3593)

# GÜCLÜ LİDER, YÜKSƏK RİFAH, DAVAMLI TƏRƏQQİ

## *Yeni inkişaf strategiyası növbəti onillikdə də hərtərəfli yüksəlişə əminlik yaradır*

Ölkəmizin bu gün tarixinin ən qüdrətli dövrünü yaşadığını xalqın yüksək rifah səviyyəsi və davamlı sabitlik amili dünyaya nümayiş etdirir. Azərbaycan beynəlxalq tərəfdaşları tərəfindən irimiqyaslı layihələr həyata keçirən regionun lideri, əməkdaşlığa və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı dövlət kimi də tanınır.

Bütün bu uğurlar İlham Əliyevi dövlət başçısı kimi Azərbaycanın ən yeni tarixinə iqtisadi və siyasi müstəqilliyə nail olmuş, güclü orduya sahib müzəffər Ali Baş Komandan, nüfuzlu Prezident kimi yazmaqdadır.

Məhz Prezident İlham Əliyevin müstəqil siyasəti, uğurlu diplomatiyası sayəsində Azərbaycan bu gün özünü təmin edən, iqtisadi müstəqilliyə sahib olan qüdrətli ölkədir. Bunu müharibədən sonra Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misli görünməmiş yenidənqurma, tikinti-quruculuq işlərinin heç kimdən yardım almadan dövlətin öz gücünə həyata keçirməsi də bir daha təsdiq edir.



Bu fakt inkaredilməzdir ki, hər bir dövlət, şirkət bu və ya digər ölkənin iqtisadiyyatına investisiya yatırarkən ilk növbədə demokratik inkişafın əsas göstəricilərindən olan sabitliyə xüsusi diqqət yetirir. Qoyulan investisiyanın təhlükəsizliyinin təminatı bütün dövrlər üçün aktual hesab edilir. Azərbaycanın da investisiya cəlbediciliyini şərtləndirən əsas amil ölkəmizdəki sabitlik və normal investisiya mühitinin yaradılmasıdır.

Bu, növbəti onilliklərdə ölkənin sosial-iqtisadi inkişafı üçün də aydın mənzərə yaradır.

Ölkədə ictimai-siyasi sabitliyi daha da gücləndirməklə dayanıqlı iqtisadi artım, yüksələn sosial rifah və davamlı sabitlik proritet olaraq qalır.

Artıq iqtisadiyyatda neft gəlirlərindən effektiv istifadə etməklə gələcək inkişaf üçün şaxələnmə və ixrac potensialı yaradılıb. Bütün bu nəticələrin əldə olunmasında dövlətin səmərəli idarəetməsi həlledici rol oynayıb.

Elan edilən yeni sosial-iqtisadi inkişaf modeli 2030-cu ilədək olan dövrdə ölkədə bütün sahələrdə həyata keçirilməsi nəzərdə tutulan köklü islahatların ideologiyasını təmin edir. İdeologiyanın nüvəsində yaradıcı sahibkar, məhsuldar investisiyalar, innovasiyaları dəstəkləyən əqli mülkiyyətin inkişafı və rəqabətli bazarlar durur. Beynəlxalq nüfuza malik güclü lider, çətin dövrlərdə yüksək dövlət və vətəndaş həmrəyliyi, yeniliyə açıq və biliyi hər şeydən üstün tutan cəmiyyət, eləcə də uzun illər ərzində formalaşmış yüksək iqtisadi potensial yeni milli sosial-iqtisadi inkişaf modelinin uğurla həyata keçirilməsinə təminat verir.

Ekspertlər hesab edir ki, dövlət başçımızın milli maraqlara əsaslanan siyasəti qarşıdakı dövrdə də ölkənin hərtərəfli tərəqqisini təmin edəcək. Aparılan islahatların nəticəsi olaraq Azərbaycan Qafqazın siyasi və iqtisadi güc mərkəzi kimi mövqelərini daha da gücləndirəcək.




Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il avqust ayının 25-də Şəki Şəhər Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 24.08.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Narkotiklərlə mübarizə qətiyyətlə davam etdirilir

**Daxili İşlər Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin** əməkdaşlarının Yardımlı rayonu ərazisində birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayon sakini, 2006-cı il təvəllüdlü şərti adı A.A tutularaq üzərindən 26 qram metamfetamin aşkar olunaraq götürülüb.

Davam etdirilən tədbirlərlə narkokuryerliyə cəlb edilən yetkinlik yaşına çatmayan şəxsin İran İslam Respublikası ilə dövlət sərhəddinin yaxınlığında gizlətdiyi yerdən əlavə 13 kiloqram 530 qram heroin, 10 kiloqram 550 qram qurudulmuş marixuana və 3 kiloqram 65 qram metamfetamin aşkarlanıb.

Narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən şəxs ilkin sorğuda ondan aşkar olunan narkotik vasitələri və psixotrop maddəni "Əhməd" adlı şəxsdən satmaq məqsədilə əldə etdiyini bildirib.

Tədbirlərlə, ümumilikdə 27 kiloqram 171 qram narkotik maddə qanunsuz dövriyyədən çıxarılıb.

O da müəyyən edilib ki, şərti adı A.A-nın atası 2020-ci ildə külli miqdarda narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil etdiyinə görə polis tərəfindən tutularaq istintaqa cəlb edilib və barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Yetkinlik yaşına çatmayan şəxsi narkokuriyerliyə cəlb edən şəxslərin müəyyən olunması istiqamətində tədbirlər davam etdirilir.

❖❖❖❖❖

**Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin** əməkdaşları tərəfindən paytaxt və bölgələrdə son 1 ay ərzində keçirilən əməliyyatlar zamanı onlayn yolla narkotik maddələrin satışını həyata keçirən, narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan 8 mütəşəkkil dəstə və onun 59 nəfər üzvü saxlanılıb. Həmin şəxslərdən ümumilikdə 331 kiloqram narkotik vasitə və psixotrop maddə, 2261 ədəd psixotrop tərkibli həb, 2921 ədəd kultivasiya edilərək yetişdirilən çətənə kolu, 2 ədəd tapança və soyuq silah qismində istifadə edilən digər əşyalar aşkar edilib.

Daxil olmuş məlumat əsasında Bakı şəhəri və bölgələrdə həyata keçirilən xüsusi əməliyyatlar zamanı Fərid Cəfərov, İmamqulu Bədirov, Seyidrza Ağamı, İlkin Abbasov, Sərxan Məmmədov və Şamil Sadıxov tutulublar. Bu şəxslərdən, idarə etdikləri avtomobillərdən, eləcə də yaşadıqları evlərdən ümumilikdə 204 kiloqram yüksək təsiredici narkotik maddə, o cümlədən 156 kiloqram heroin, 32 kiloqram marixuana, 16 metamfetamin, psixotrop tərkibli həblər, elektron tərəzilər, narkotik vasitələrin satışından əldə etdikləri pul vəsaitləri və onlayn satış zamanı istifadə olunan plastik kartlar aşkar edilib. Adları çəkilən 6 nəfərin əsas məqsədi qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən narkotik vasitələri satmaqla yanaşı yeni-yeni insanları narkokuryerliyə cəlb etmək olub.

Keçirilmiş əməliyyat tədbirlərinin davamı olaraq daha 53 nəfər saxlanılıb. Onlardan 127 kiloqram müxtəlif növ narkotik vasitə, elektron tərəzilər, psixotrop tərkibli həblər, narkotiklərin onlayn satışında istifadə olunan plastik kartlar aşkar olunub.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb, saxlanılan şəxslərin hər biri barəsində həbs qətimkan tədbiri seçilib.

# VƏTƏN ADLI ZİRVƏYƏ UCALANLAR...

## Onların döyüş yolu hərb tariximizə qızıl hərflərlə yazılıb

44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəhid olmuş hərbi qulluqçularının siyahısında adı yazılan çavuş İmanzadə Hilal Sabir oğlunun ömür yolu qeyrət, fədakarlıq və hünər nümunəsidir. O, 1995-ci ilin iyun ayının 23-də Beyləqan rayonunun Milabad qəsəbəsində doğulub.



Hilal Beyləqan rayonunun Araz qəsəbəsindəki Fazil Miriyev adına tam orta məktəbdə 6-cı sinfədək oxuyub, sonra Bakının Sabunçu qəsəbəsində yerləşən 215 saylı tam orta məktəbdə təhsil alıb. Məzun olduqdan sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil almaq arzusuna çatmayıb. Bir müddət videooperator işləyib.

2013-cü ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2015-ci ilin aprel ayınadək Dövlət Sərhəd Xidmətinin Yevlax və Şəmkir rayonlarındakı "N" saylı hərbi hissələrində hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidməti dövründə "kiçik çavuş" rütbəsinədək yüksəlib.

Polis orqanlarında xidmət etmək üçün Daxili İşlər Nazirliyi tərəfindən təşkil olunan seçim mərhələsinə qatılıb. Seçim mərhələsində Gəncə Daxili Qoşunların tərkibində xidmətə başlamaq təklifini məmnuniyyətlə qəbul edib. Beləliklə, 2016-cı ilin iyul ayının 30-da Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Qoşunların Zaqatala rayonundakı, habelə, Bakının Binəqədi və Xətai rayonlarında yerləşən hərbi hissələrində xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda qumbaraatan köməkçisi, snayper, xüsusi əməliyyat qrupunda atıcı-snayper, xüsusi həmlə qrupunda heyət nəfəri vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğruldub. 2019-cu ilin noyabr-dekabr aylarında Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Foçadakı Komando Məktəbində snayper kursu keçib. Praktiki göstəricilərinə görə "Kəskin nişançı" mükafatı və müvafiq sertifikat verilib.



2020-ci ilin sentyabr ayının 27-də Vətən müharibəsi başladıqda ön cəbhəyə ilk göndərilən döyüşçülərin arasında Hilal da vardı. Bakının Xətai rayonundakı "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin bir qrup şəxsi heyətinin tərkibində o, Füzuli-Cəbrayıl rayonları istiqamətində Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin hərbi qulluqçuları ilə birlikdə döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunub. Xüsusi təyinatlının döyüş yolu oktyabrın 1-dək davam edib...

Vətən müharibəsi iştirakçısı, "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri, baş çavuş Elnur Zuliyev Hilalla eyni hərbi hissədə xidmət etdiklərini, birlikdə xüsusi təyinatlıların taktiki təlimlərinə cəlb olunduqlarını, Vətən müharibəsində Cəbrayıl rayonu istiqamətində, Arazqırağında düşmənin postlarının ələ keçirilməsində, onun birinci və ikinci müdafiə xəttlərinin yarılmasında şücaət göstərdiklərini deyir: "Düşmənin müdafiə xəttinin yarılması zamanı Hilal önü düşmənə tərəf olan təpənin sağ cinahında mövqelənmişdi. Mövqelər arasında təxminən 350-400 metr məsafə vardı. Sol cinahdakı döyüşçülərin sursatı tükənmişdi. Birdən Hilal sursat yeşiyini qucağına alaraq yoldaşlarına tərəf qaçdı. Yerimizdə donub qalmışdıq. Sanki düşmən də özünü itirmişdi. Qarşı tərəfdən atılan minaatan mərmisi...Başından və aşağı ətraflarından ağır yaralanan döyüşçümüz yerindəcə şəhadətə ucalmışdı"...

Vətən müharibəsi iştirakçısı, "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-istehkamçı çavuş Elton Hacıyev: "Oktyabrın 1-i, Hilalın şəhid olduğu o günü, anları xatırlamaq çox ağırdır. Döyüşdən qabaq Hilal əşyalarının içinə məktub yazıb qoymuşdu. Onun xüsusi təyinatlıya məxsus çantalardan birini döyüşlərdən sonra axtarsaq da, tapa bilmədik"...

6 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Hilalın 2 oktyabr 2020-ci ildə Füzuli rayonunda hərbi əməliyyat nəticəsində qəlpə yaralanması, kəllə və üz skelet sümüklərinin sınıqları nəticəsində həlak olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuz Beyləqan rayonunun Peyğəmbər ziyarətgahı qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr tarixli müvafiq sərəncamları ilə çavuş H.İmanzadə ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Gənclik üçün, gələcək üçün...

## Çətin keçilən yolların sonunda həmişə uğur var




"Qəbələ" İdman Klubunda "Narkomaniyaya yox deyək" mövzusunda maarifləndirmə tədbiri keçirilib. Tədbirdə Rayon Polis Şöbəsinin əməkdaşları, klubun rəhbərliyi və idmançılar iştirak ediblər.

Narkomaniyanın yaratdığı problemlərdən, narkotik vasitələrin fəsadlarından danışan RPŞ-nin rəisi, polis polkovniki Nadir Məmmədov ölkəmizdə narkomaniya ilə mübarizə sahəsində görülən işlərdən də söz açıb. O, "ağ ölüm"ə qarşı cəmiyyətin hər bir üzvünün fəal mübarizə aparmasının vacibliyini vurğulayıb.

Gəncliyimizin və gələcəyimizin qorunması, onların sağlam mühitdə böyüməsi, yetişməsi üçün əsl fədakarlıq nümayiş etdirərək gecəli-gündüzlü xidmət aparan Azərbaycan polisinin bu maarifpərvər missiyasını da yüksək qiymətləndirən klubun prezidenti Fariz Nəcəfov keçirilən tədbirlərin əhəmiyyətinə diqqət çəkib, gənclərimizi zərərli vərdişlərdən uzaq olmağa çağırıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

*Mahir Mənsimov,*
*polis baş leytenantı*

# O, bizi Avropada təmsil edəcək

## Seçdiyi ixtisasla dünyanı qorumaq arzusundadır

**Nəqliyyatda Baş Polis İdarəsinin Əməliyyat-Statistik İnformasiya Bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı Rövşən Əhmədovun övladı, Azərbaycan-Fransız Universitetinin məzunu Eyvaz Əhmədzadə** magistr təhsilini Avropanın üç universitetində almaq imkanı qazanıb. Hazırda 20 yaşı olan Eyvaz deyir ki, onu qarşıda uzun təhsil dövrü gözləyir: "Dördüncü kursun əvvəllərində bir list hazırladım. Bu listdə oxumaq arzusunda olduğum universitetlər və təqaüd proqramları var idi. Bunlardan biri də Erasmus Mundus Birgə Magistr layihəsi idi".

Qeyd edək ki, bu layihə Avropa İttifaqı tərəfindən yaradılıb və maliyyələşdirilir. Hər il minlərlə tələbə bu proqrama müraciət edir və onların kiçik bir hissəsi təqaüdlə ən azı iki Avropa universitetində təhsil almaq haqqı qazanır. Həmkarımızın övladı da Yaşıl Şəbəkə və Bulud Hesablama texnologiyaları ixtisasına müraciət edərək təxminən 800 müraciətçi arasından seçilən 24 tələbədən biri olub.



O, növbəti iki il ərzində Fransanın Lotaringiya, Böyük Britaniyada Lids Bekket, İsveçin Lulea Texnologiya universitetlərində təhsil alacaq. Eyni zamanda, təhsil aldığı müddətdə iki yay məktəbini bitirəcək, bir master dissertasiyası layihəsi hazırlayacaq ki, bunlar da ayrı Avropa ölkələrində olacaq.

Polis övladı ümumilikdə 6 ölkədə təhsil alacaq və üç diploma yiyələnəcək.

Deyir ki, seçdiyi ixtisasa maraq oxuduğu məqalədən sonra yaranıb: "Üçüncü kursun sonlarında bir məqalə oxumuşdum. Bu məqalədə Böyük Britaniyada aparılan bir araşdırmadan bəhs olunurdu. Araşdırmaya görə əgər hər birimiz bir ədəd az elektron poçt göndərsək, ümumilikdə, havaya buraxılan karbon emissiyalarının miqdarı təxminən 16 min tona qədər azalardı. Buna görə də bu ixtisası seçdim ki, daha səmərəli enerji və davamlı infrastrukturları qurmaq üçün çalışım".

"Polis" qəzeti olaraq həmkarımızın övladına karyerasında uğurla addımlamağı, ölkəmiz üçün, eləcə də qlobal miqyasda faydalı işlərə imza atmağı arzulayırıq.

*"Polis"*

# Dilimiz tariximiz və sərvətimizdir

1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil dövlətimizin Konstitusiyasında Azərbaycan dilinin rəsmi dövlət dili elan olunması, ana dilimizin tətbiqi sahələrini genişləndirməyi bir zərurətə çevirdi. Ana dilimizə dövlət dili statusu verildi. Ulu öndər Heydər Əliyevin 2001-ci il 9 avqustda imzaladığı "Azərbaycan əlifbası və azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmana əsasən, hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Dili günü kimi qeyd edilir.




Ümummilli liderin ideyalarını layiqincə həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"kı sərəncamı ilə isə nəşrlərin latın qrafikasına keçirilməsi tam həllini tapdı.

Möhtərəm Prezidentimizin ana dilinin dövlət dili kimi geniş, maneəsiz işləkliyi üçün göstərdiyi siyasi, milli iradə, gördüyü məqsədyönlü işlər Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə və türk dilləri arasında mötəbər mövqe qazanmasına xidmət edir. Ölkə həyatında dilin tarixi, müasir vəziyyəti və onun hüquqlarının müdafiə olunması və genişləndirilməsi məsələləri daim gündəmdə qalmaqla, dövlət əhəmiyyəti daşıyır.

Ana dilimiz xalqımızın keçdiyi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamışdır. Nizami müdrikliyi, Füzuli sevgisi, Nəsimi üsyankarlığı, Üzeyir akkordları, Mirzə Cəlil yanğısı, Cavid fəlsəfəsi, Müşfiq lətafəti ana dilimizdə ifadə olunmuş, zaman-zaman qanımıza, canımıza hopmuşdur.

Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək, aydın şəkildə ifadə etmək qüdrətinə malik olan, gələcək nəsillərə ötürüləcək zəngin bir xəzinədir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Silah-sursat aşkar edilib

Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdəki tərk edilmiş hərbi mövqelərdən silah-sursatın və partlayıcı vasitələrin toplanması istiqamətində intensiv tədbirlər davam etdirilir.



Xocavənd RPŞ əməkdaşlarının rayon ərazisində keçirdiyi tədbirlərlə erməni hərbi birləşmələrinə məxsus xeyli sayda silah-sursat aşkar edilib. Tapılan 3 avtomat, 2 qumbaraatan, 1 pulemyot, 1 tapança silahları, eləcə də 12 ədəd tank və 5 ədəd piyada əleyhinə mina, 30 ədəd qumbaraatan mərmisi, 2318 ədəd müxtəlif çaplı patronlar və digər döyüş sursatları götürülərək aidiyyəti üzrə təhvil verilib.

# TƏHLÜKƏSİZLİYİ TƏMİN EDİR, ASAYİŞİ QORUYURLAR

## *İşğaldan azad olunmuş rayonlarımızda sabitlik onlara əmanətdir*

Zəngilanın Ağalı kənd sakinlərinin 30 illik həsrətinə son qoyuldu və onlar mərhələli şəkildə doğma yurd yerlərinə böyük sevinc hissi ilə qayıtdılar.

Düşmən tərəfindən dağıdılaraq yerlə-yeksan edilmiş kənd yenidən qurularaq əvvəlkindən də yaxşı, müasir görkəm alıb. Burada "ağıllı kənd" konsepsiyasının hər üç komponenti – ağıllı dövlət idarəçiliyi, ağıllı infrastruktur və xidmətlər, eyni zamanda, ağıllı təsərrüfat və biznes mühiti yaradılıb.









Qəsəbədə "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, həmçinin Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri təsis olunub. Eyni zamanda, kənddə yüksək sürətli internet şəbəkəsi qurulub. Kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri, habelə digər ictimai iaşə obyektləri də sakinlərin ixtiyarına verilib.

İllər sonra yurd-yuvalarına qayıdan Ağalıların təhlükəsizliyinin təmini, asayişin, hüquq qaydalarının qorunması üçün kənddə Zəngilan Rayon Polis Şöbəsinin müasir tipli Polis sahə məntəqəsi fəaliyyətə başlayıb. Yeni məntəqədə hər cür zəruri şərait yaradılıb, əməkdaşlar müasir texniki və xüsusi avadanlıqlarla təchiz olunub.

Yenidən doğma torpaqlarımıza qayıdış hamı kimi Zəngilan RPŞ-nin əməkdaşlarının da böyük sevincinə səbəb olub.

Yeri gəlmişkən, Zəngilan döyüşən, döyüşlərə şahidlik edən rayon olduğundan şöbənin əməkdaşları düşmən torpaqlarımıza göz dikən gündən döyüşlərə qatılıb, son damla qanlarınadək vuruşaraq qəhrəmanlıq salnaməsi yazıblar. 1994-cü ildə Horadizin alınmasında Zəngilan RPŞ-nin əməkdaşları dillərə dastan olan fədakarlıqları tarixə düşüblər. Birinci Qarabağ döyüşlərində Zəngilan Rayon Polis Şöbəsinin 17 nəfər əməkdaşı rəşadətlə döyüşərək şəhidlik zirvəsinə ucalıb. Onlardan Mehbalıyev Müşfiq Əjdər oğlu ölümündən sonra "İgidliyə görə" medalına layiq görülüb.

**Zəngilan Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Bəkir Cabbarov** "Polis"ə bildirdi ki, 27.10.2020-ci il tarixdən etibarən şöbənin əməkdaşları rayon ərazisində təşkil edilmiş 3 stasionar postda xidmətə cəlb olunublar. Görülən tədbirlərə ötən müddət ərzində Zəngilana səfər etmiş dövlət yetkililərinin, ayrı-ayrı beynəlxalq təşkilatların, media nümayəndələrinin, rayonun quruculuğuna cəlb edilmiş tikinti şirkətlərində çalışanların təhlükəsizliyi təmin edilmişdir. Mina və partlayıcı vasitələrin törədə biləcəyi ağır nəticələri nəzərə alaraq bura qanunsuz daxilolmaların qarşısı alınmışdır. Şöbə əməkdaşları tərəfindən rayon ərazisində keçirilmiş tədbirlər nəticəsində xeyli miqdarda silah-sursat və yabanı halda bitmiş narkotik tərkibli bitkilər aşkar edilmişdir. Bu gün də təhlükəsizlik tədbirləri davam etdirilməkdədir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Hörmətlə anır, ehtiramla yad edirik

## *Təqaüddə olan polis polkovniki Müseyib İlyasov haqqa qovuşdu*



O, mənalı həyatının 40 ilə yaxın dövrünü daxili işlər orqanlarına həsr edərək şərəfli bir yol keçmiş, Vətənə və xalqa sədaqətlə xidmət etmiş, rəhbər vəzifələrdə işləyərkən səmərəli fəaliyyəti, böyük idarəçilik və təşkilatçılıq bacarığı, işgüzarlığı, yüksək intellektual səviyyəsi, iradi və mənəvi keyfiyyətləri ilə seçilməyi bacarmışdı.

Təqaüdə çıxdıqdan sonra da dövlətçiliyimizin dayaqlarının möhkəmlənməsində canını fəda edən, ayıq-sayıq xidməti ilə cinayətkarlığa qarşı ciddi mübarizə aparan hüquq-mühafizə orqanlarının, o cümlədən, Azərbaycan Polisinin nüfuzunun yüksəlməsi üçün polis veteranı kimi üzərinə düşən vəzifəni bir vətəndaş yanğısıyla, özü də layiqincə icra edirdi. Yüzlərlə əməkdaşın yetişməsində əməyi vardı. Şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsində və peşəkarlığının artırılmasında əlindən gələni əsirgəmirdi.

Tanıyanlar, bilənlər bu gün də M.İlyasovun açılmayan cinayətlərin üstünü isti izlərlə açmaq bacarığından, idarəçilik mexanizmini təkmilləşdirməsindən sevə-sevə danışırlar.

**Kiçik bir xatırlatma:** Polis polkovniki Müseyib İlyasov 1926-cı ildə Qubada doğulub. 1944-cü ildə hərbi xidmətə çağırılaraq Don cəbhəsində 191-ci ehtiyat alayının tərkibində xidmətə başlayıb. Müharibə başa çatandan sonra hərbi xidməti Sərhəd Qoşunlarında keçib. 1945-ci ilin may-oktyabr aylarında Kiçik Komandirlər Məktəbində təhsil alıb. 1950-ci ildə ordu sıralarından tərxis olunub. 1951-1955-ci illərdə Dövlət Təhlükəsizliyi Komitəsinin Xaçmaz şöbəsində əməliyyat işində xidmətini davam etdirib və taleyini milislə bağlayıb. Moskvada Ali Milis Məktəbini bitirib. Bir çox şəhər və rayonlarda rəis vəzifəsində qüsursuz xidmət edib. 1975-ci ilin yanvarında Daxili İşlər Nazirliyinin Mərkəzi Aparatına təyinat alıb. Əvvəlcə qərargah rəisinin müavini, 1978-1988-ci illərdə qərargah rəisi və nazir müavini vəzifələrində çalışıb. 1990-cı ilin fevral ayında milis polkovniki rütbəsində təqaüdə çıxıb...

Ömür vəfa etsəydi 100-ü haqlayacaqdı. Hörmətli veteranımız iyulun 23-də 96 yaşında haqqa qovuşdu. Allah rəhmət eləsin!

*T.Hafiz*

# Monitorinq keçirilib

Daxili İşlər Nazirliyi yanında İctimai Şura tərəfindən ötən ay Xətai və Qaradağ rayon polis idarələrinin Müvəqqəti saxlama yerlərində monitorinqlər keçirilib. Monitorinqlərin keçirilməsində məqsəd saxlanılma şəraitinin, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olub. Monitorinq keçirildikdən sonra sözügedən polis idarələrinin rəhbərliyi ilə monitorinqin nəticələri barədə müzakirələr aparılıb, çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr verilib. Monitorinqin nəticələrinə dair müvafiq rəy DİN yanında İŞ sədrinə təqdim edilib.

Qeyd edək ki, DİN yanında İŞ-in "Polis orqanlarında müvəqqəti saxlama yerləri üzrə" monitorinq qrupunun Fəaliyyət Planı təsdiq edilib. Plana uyğun olaraq, Monitorinq qrupu tərəfindən Bakı şəhərinin 11 rayonunun polis idarələrində, Daxili İşlər Nazirliyinin İnzibati Həbs Olunanların Saxlanma Məntəqəsində monitorinqlərin həyata keçirilməsi nəzərdə tutulub. Hər bir monitorinq prosesinin yekununda İŞ tərəfindən Daxili İşlər Nazirliyinə müvafiq rəylər, hesabat və tövsiyələr təqdim ediləcəkdir.

İctimai Şuradan verilən məlumata görə, DİN rəhbərliyi ilə nəticələrin müzakirə olunması planlaşdırılıb.

# Polis Akademiyasında təlim



Polis Akademiyasında "İctimai qaydanın qrup halında pozulmasının qarşısının alınması və ictimai təhlükəsizliyin təmin olunması üzrə xüsusi əməliyyatda şəxsi heyətin fəaliyyəti" mövzusunda keçirilən əməliyyat taktiki təlimin məqsədi kursantların mənəvi-psixoloji durumunun, eyni zamanda, döyüş hazırlığı səviyyəsinin yoxlanılması olub.

Qeyd edək ki, keçirilən bu kimi təlimlər təhsil alanlarda hərbi bilik və bacarıqların, peşə vərdişlərinin daha da artırılmasında əhəmiyyətli rol oynayır.

Kursantlar xüsusi qruplara bölünərək silah, sursat və xüsusi vasitələrdən istifadə bacarıqlarını nümayiş etdirmiş, bölmələr ərazidə müxtəlif üsullarla taktiki yerdəyişmə və digər tapşırıqları uğurla yerinə yetirmişlər. Təlimə rəhbərlik edən komandir və qərargah üzvlərinin əməliyyatı planlaşdırılmaları, şəraitə uyğun vəziyyəti qiymətləndirilmələri, bir sözlə, peşə bacarıqları rəhbərlik tərəfindən yüksək qiymətləndirilmişdir.

Taktiki təlimlərin gələcək polis zabitlərinin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına və praktiki vərdişləri təkmilləşdirməsinə, müasir silah, xüsusi vasitələr və texnikalara yaxından bələd olmalarına, onların istismar qaydalarını, döyüş tətbiqi üsullarını öyrənməyə xidmət etdiyini bildirən Akademiyanın rəisi, polis general-mayoru C.Daanov bu növ təlimlərin gələcəkdə də mütəmadi olaraq davam etdirilməsinin vacibliyini vurğulamışdır.

# BİLİRDİNİZMİ?

❖Beyniniz 2,5 milyon GB bilgini saxlamaq bacarığına malikdir. Belə bir imkan olsa, beyninizə 300 il uzunluğunda olan yüksək keyfiyyətli videonu yükləyə bilərdiniz.

❖Burnunuzun da eynilə beyniniz kimi yaddaşı var. Buna görə 50 min fərqli qoxunu xatırlaya bilərsiniz.

❖Bir yerə baxarkən diqqətinizi cəmləyən əzələ göz əzələləridir. O, gündə 100 min dəfə hərəkət edir. Bu da 80 kilometr gəzərkən istifadə olunan bütün əzələ hərəkətlərinə bərabərdir.

❖Saçlarınızı birləşdirsəniz alınan ip 12 ton yükü qaldıra biləcək qədər sağlamdır.

❖ Gözünüz digital kamera olsaydı, 576 meqapiksellik kameranın gücünə sahib ola bilərdi.

❖ Dilimizdə 10 min dad alıcı var. Daha yaxşı dad ala bilməniz üçün 2 həftədən bir yenilənirlər.

❖Ürəyiniz öz enerjisini istehsal edə bildiyi üçün bədəninizdən çıxarıldığında da ata bilir. Hətta oksigen ala bilərsə öz başına yaşamağa davam edə bilər.

❖Mədə ülgücü əridə biləcək qədər güclüdür.

❖Sinir hüceyrələrinin daşıdığı siqnalların sürəti saatda 400 kilometrdir. Bu da «Formula» maşınlarının sürətindən daha güclü deməkdir.

❖Qara ciyəriniz hüceyrə yeniləmə barəsində qeyri-adi bacarığa malikdir. Qara ciyərinizin yarısını bağışlaya bilərsiniz. Bir müddətdən sonra özünü bərpa edə bilər.

❖Bədəninizin yarım saatda istehsal etdiyi istiliklə 4 litr su qaynada bilərsiniz.

❖ İndi dünyanın ən sürətli kompüteri 1300 çinli alimin birgə işi ilə hazırlanan «Tiyalde 2»-dir. Beynimiz bu kompyuterdən daha sürətlidir.

❖Bədəniniz saniyədə 25 milyon yeni hüceyrə istehsal edir. Beləliklə, 4 saniyədə bütün Türkiyə əhalisindən daha çox hüceyrə istehsal edirsiniz.

❖Gözünüz 10 milyon müxtəlif rəngi seçə bilər.

❖Bədəninizdəki damarların uzunluğu 96 min kilometrdir. Dünyanın ətrafı 40 min kilometr olduğuna görə, damarlarınız dünyanı 2,5 dəfə dövr edə bilər.

❖Beyniniz dəqiqədə min söz oxumaq bacarığına malikdir.

❖Sümükləriniz qranit qədər güclüdür. Bir kibrit qutusu böyüklüyündə sümük 9 ton ağırlığa dözə bilər.

❖Dünya düz olsaydı, zülmət qaranlıqda gözünüz 50 kilometr uzaqlıqda olan şam işığını görə bilərdi.

# Onlar həm də xilaskardırlar...

Avtomobili nasaz vəziyyətdə yollarda qalan, halı pisləşən vətəndaşlara istər dövlət yol polisi, istərsə də xidmətdə olan digər əməkdaşlarımızın köməklik etmələri barədə xəbərlərə tez-tez rast gəlirik. Bəzən elə olur ki, yol polisi əməkdaşları həyatı təhlükəsi olan vətəndaşı hətta öz maşınları ilə rayonlardan Bakıya xəstəxanaya da çatdırırlar. Belə məlumatların fotoları və videoları sosial şəbəkələrdə yayılanda ictimaiyyət tərəfindən rəğbətlə və minnətdarlıq hissi ilə qarşılanır.

Elə bu günlərdə vətəndaşlardan biri Avtosfer.az saytına video göndərərək yayımlanmasını xahiş edib. Videonu göndərən şəxs deyib ki, 99-GY-861 dövlət nömrə nişanlı, "Toyota Prius" markalı, üzərində taksi tanınma nişanı olan avtomobil sürücüsünün qəfil halı pisləşib. Ürəyində problem olan sürücünün köməyinə yaxınlıqda xidmət aparan 99-YP-792 dövlət nömrə nişanlı patrul avtomobilinin ekipajı çatıb. Onlar sürücünü xəstəxanaya çatdırıblar. Vətəndaşlardan biri bu hadisəni videoya çəkib və polislərə təşəkkürünü bildirib.

Polis ömrü ölümün bir addımlığındadır. Və bunu bilə-bilə həmkarlarımız "Sonunu düşünən qəhrəman olmaz"aksiomasına sadiq qalıb xilaskarlıq missiyalarını yerinə yetirirlər. Ötənləri xatırlamağa ehtiyac olmasa da "Ən uzun yaddaşdan qısa bir qeyd yaxşıdır" məsəlinə sözümüzü söykəyib keçmişə boylanmağı biz də "Polis" olaraq özümüzə borc bildik.






İyunun ayının 17-si saat 21:00 radələrində əvvəllər narkotik vasitələrin istifadəsinə və satışına görə məhkum olunmuş Şirvan şəhər sakini 32 yaşlı Elzamin Allahverdiyev paytaxtın Nəsimi rayonu ərazisindəki yaşayış binalarından birinin 5-ci mərtəbəsinə çıxaraq oradan özünü atmağa cəhd göstərəndə hadisə yerinə gələn Nəsimi Rayon Mühafizə İdarəsinin əməkdaşı, polis serjantı İ.Cavayev aşağı mərtəbədəki pəncərənin şüşəsinin yumruqla qıraraq E.Allahverdiyevin ayağından tutub və digər polis əməkdaşlarının köməyi ilə onun həyatını xilas etmişdi. Özü isə sağ bilək və baş nahiyəsindən kəsik xəsarətləri almışdı.

Metronun Koroğlu stansiyasında halı pisləşən vətəndaşın da köməyinə orada xidmət aparan polislərimiz çatmışdı. İlkin tibbi yardım göstərsələr də vətəndaşın vəziyyətinin get-gedə pisləşdiyini görən həmkarlarımız vaxt itirmədən təcili tibbi yardıma xəbər verərək zəhərlənən vətəndaşın həyatını xilas etmişdilər.

Nəsimi rayonunda mənzillərdən birində baş verən yanğın zamanı tüstüdən zəhərlənərək evdə huşsuz və köməksiz vəziyyətdə qalan vətəndaşı da öz həyatını təhlükəyə ataraq Nəsimi RPİ-nin əməkdaşı polis serjantı Elnur Əhmədov xilas etmişdi...

Sadaladıqlarımız bunlarla bitmir. Həmkarlarımızın köməkliyi ilə ata-ana nəvazişindən, diqqətindən kənar qalan, yollarda, keçidlərdə gecələyən, dilənməyə məcbur edilən, əməyi istismar olunan onlarla uşaq, məişət zorakılığından əziyyət çəkən qadınlar sığınacaqlara yerləşdirilib.

Vətəninə, xalqına, bayrağına, andına sadiq olan, daşıdığı mundirə hörmətlə yanaşan, xidməti borcunu layaqətlə yerinə yetirən həmkarlarımızın xoş sorağını eşitmək, haqqlarında ürəkaçan sözlərlə dolu təşəkkür məktublarını oxumaq qürurvericidir. Bax bu, təşəkkür məktubunda yazıldığı kimi: "Azərbaycan Polisi bu gün cinayətkarlığa qarşı amansız mübarizə aparmaqla yanaşı həm də vətəndaşını təhlükədən xilas edir, ona dəstək olur, gənclərimizi "ağ ölüm"ün pəncəsindən qurtarmaqçün əlindən gələni əsirgəmir. Bax, budur Azərbaycan Polisi! Həm sərt, həm mülayim, həm də xilaskar. Bunların hər biri isə öz məqamında, öz yerində..."

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Silahsız özünümüdafiəni hər bir əməkdaş bacarmalıdır










DİN İdman Cəmiyyətində silahsız özünümüdafiə üzrə keçirilən çempionatda Bakı Şəhər Baş Polis İdarəsinin, Nəqliyyatda Baş Polis İdarəsinin, Baş Dövlət Yol Polisi İdarəsinin, Əlahiddə Çevik Polis Alayının, Daxili Qoşunların Baş İdarəsinin, DİN Baş Mühafizə İdarəsinin, DİN-in A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbinin və Diplomatik Nümayəndəliklərin Mühafizəsi Üzrə Əlahiddə Polis Taborunun idmançıları iştirak ediblər.

Bakı Şəhər BPİ-nin rəis müavini, polis general-mayoru Sərdar Səfərov və DİN İdman Cəmiyyətinin idmanın təşkili şöbəsinin rəisi, polis polkovnik-leytenantı Munir Orucov yarış iştirakçılarına uğurlar arzulayıblar.

Qeyd olunub ki, bölgələr üzrə keçirilən yarışın qalibləri-Şəki, Saatlı, Xaçmaz və Göygöldən olan idmançılar da DİN-in çempionatında iştirak etmək hüququ qazanıblar. Yarışda 84 idmançı şəxsi və komanda birinciliyində güclərini sınayıb.

Çempionatda DİN Daxili Qoşunların hərbi qulluqçuları birincilik qazanıblar. Gümüş medalları BBPİ-nin komandası əldə edib. Abşeron RPİ-nin komandası isə üçüncü pillədə qərarlaşıb.

Sonda qalib komandalara kubok, medal, qiymətli hədiyyə və diplom təqdim edilib.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Narkotik tərkibli bitkilər məhv edildi

Gədəbəy Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri "Xaş-xaş-2022" şərti adlı kompleks əməliyyat-axtarış





və profilaktik tədbirlər nəticəsində rayonun Başkənd kənd ərazisində yabanı halda bitən narkotik tərkibli çətənə kolları aşkar edilib.

Ümumi çəkisi 1294 kiloqram olan, 1052 ədəd çətənə kolu kökündən çıxarılıb və yandırılaraq məhv edilib.




**Bakı şəhər BPİ-nin Cinayət Axtarışı İdarəsi və Abşeron RPİ** əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cari ilin iyulun 28-də Xırdalan şəhəri ərazisində E.Yaqubovun 200 ABŞ dolları və 1200 manat pulunu quldurluq yolu ilə talamaqda şübhəli bilinən paytaxt sakini R.Şahverdiyev və Şamaxı rayon sakini M.Nəcəfov saxlanılıblar.

◆◆◆

**BDYPİ və Hacıqabul RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş İ.Kərimovun idarə etdiyi "Kia" markalı avtomobil saxlanılıb. Araşdırmalarla sürücünün avtomobili narkotik vasitənin təsiri altında idarə etdiyi müəyyən edilib. Avtomobilinə baxış zamanı oradan 1 kiloqram 150 qramdan artıq heroin və 400 qram metamfetamin aşkar olunaraq götürülüb.

◆◆◆

**Binəqədi RPİ-nin 6-cı Polis Bölməsinin** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində G.Abbasovanın 5000 manat pulunu oğurlamaqda şübhəli bilinən Ş.Ağalarov saxlanılıb.

◆◆◆

**Binəqədi RPİ 4-cü Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 30-da M.Ə.Rəsulzadə qəsəbəsinin ərazisində qəsəbə sakini Ə.Əlixanovun quldurluq yolu ilə mobil telefonunu talamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş T.Səmədov saxlanılıb.

◆◆◆

**Nəsimi RPİ 19-cu Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 28-də Bakı şəhər sakini O.Qasımovun mobil telefonunu, içərisində pul və sənədi olan cüzdanını quldurluq yolu ilə talamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Ə.Cavadov saxlanılıb.

◆◆◆

**Ağcabədi RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan şəhər sakini T.Əliyevdən 4 qramdan artıq marixuana, yaşadığı evə baxış zamanı isə 7 kiloqram 300 qram marixuana aşkar olunaraq götürülüb.

# STATİSTİKA

## Kriminal icmal

- İyulun 27-dən avqustun 3-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan cinayətlərdən 333-nün, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 67-sinin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 267, o cümlədən borclu şəxs qismində axtarışda olan 163 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 19 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 22 nəfər ölüb, 22 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 146, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 22 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik